

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 197 (21.858)

18 oktyabr 2017-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də Yunanıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nikolaos Kanellosun etimadnaməsini qəbul edib.

Nikolaos Kanellos etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət edib.

Söhbət zamanı Yunanıstan-Azərbaycan əlaqələrinin müxtəlif aspektləri ətrafında fikir mübadiləsi aparılıb, energetika sahəsində əməkdaşlıq və ticarət dövriyyəsinin artırılması ilə bağlı məsələlər müzakirə edilib.



"Bir sıra birinci instansiya məhkəmələri sədrlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 oktyabr tarixli Sərəncamı ilə Məmmədov Mehrab Fərmayıl oğlu Naxçıvan Muxtar Respublikası Culfa Rayon Məhkəməsinin sədri, Xıdırov Əhliman Mehman oğlu Naxçıvan Muxtar Respublikası Kəngərli Rayon Məhkəməsinin sədri, Salmanov Elşən Fizuli oğlu Naxçıvan Muxtar Respublikası Ordubad Rayon Məhkəməsinin sədri, Əhmədov Zülfüqar Əziz oğlu Naxçıvan Muxtar Respublikası Sədərək Rayon Məhkəməsinin sədri və Bağırov Allahverdi Əsəd oğlu Naxçıvan Muxtar Respublikası Şahbuz Rayon Məhkəməsinin sədri təyin edilmişlər.

"Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 oktyabr tarixli Sərəncamı ilə Nağıyev İsfəndiyar Səfər oğlu və Novruzov Əsgər Novruz oğlu Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin hakimləri təyin edilmişlər.

## Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ağalarov Fazil Köçəri oğlu
Allahverdiyev Elxan Şofir oğlu
Bayramov Namiq Süleyman oğlu
Əliyev Hafiz Sabir oğlu
Əsədov Əli Hacı oğlu
Həsənov Elşad Humay oğlu
Orucov Elman İzzət oğlu
Qubadov Himayət Yəhya oğlu
Rüstəmov Mirqiyas Yəhya oğlu
Tağıyev Niyaməddin Məhərrəm oğlu – **"Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə"** nişanı ilə;

Cəfərova Yasəmən Həsən qızı
Əliyev Zaur Etibar oğlu
Gülmalıyev Ənvər Sədirxan oğlu
Məmmədov Əkrəm Dağbəyi oğlu
Mirələmov Elşad Zeydulla oğlu
Orucov Köçbəyi Namaz oğlu
Qəhrəmanov Vuqar Cəlil oğlu
Quliyev Həsrət Hilal oğlu
Sadıqova Fatma Bağır qızı
Teymurov Süleyman Salman oğlu – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 17 oktyabr 2017-ci il*

## 18 oktyabr – Dövlət Müstəqilliyi Günü münasibətilə tədbirlər keçirilib



***Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı 18 oktyabr – Dövlət Müstəqilliyi Günü münasibətilə "Naxçıvandan başlayan istiqlaliyyət salnaməsi" mövzusunda elmi-praktik konfrans keçirib.***

Konfransı giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli "Naxçıvan müasir Azərbaycan istiqlalının beşiyidir" mövzusunda çıxış edib. Qeyd olunub ki, ümummilli lider Heydər Əliyevin 1990-cı il iyulun 22-də Moskvadan doğma Naxçıvana qayıdışı müasir tariximizin son dərəcə ağır və mürəkkəb dövründə dövlətçiliyimizin xilasının başlandığı gün və mühüm tarixi hadisədir. Bu qayıdış Vətənin məşəqqətli və böhranlı günlərində obyektiv tarixi zərurətin və istiqlalımız naminə ali missiyanın təntənəsinə çevrildi. Bu tarixi missiya, ilk növbədə, 1990-cı il noyabrın 17-də ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan MSSR Ali Sovetinin ilk sessiyasının qəbul etdiyi mühüm qərarlarda özünü göstərdi. 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında muxtar respublika Ali Məclisinin Sədri seçilən ümummilli liderimiz öz fəaliyyəti ilə bir daha sübut etdi ki, müstəqilliyimizin qorunması və əbədiləşdirilməsi onun siyasi ideyalarının əsasını təşkil edir.

1991-ci il dekabrın 16-da Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi "31 dekabr Dünya Azərbaycan türklərinin Həmrəylik və Birlik Günü haqqında" qərarla bu gün artıq yüksəliş mərhələsini yaşayan bütün dünya azərbaycanlılarının vahid bayraq altında birləşməsinin əsası qoyuldu, 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində qısa müddətdə ümumxalq və dövlətçilik partiyasına çevrilmiş Yeni Azərbaycan Partiyası yaradıldı. Naxçıvanda taleyüklü tarixi qərarların qəbul edildiyi bir vaxtda ölkəmizdə naşı, səriştəsiz şəxslərin yarıtmaz siyasəti vətəndaş müharibəsinə, milli dövlətçiliyimizin real məhvolma təhlükəsi ilə üz-üzə qalmasına səbəb oldu. Məhz bu zaman xalqımız təkidlə görkəmli şəxsiyyət Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıtmasına nail oldu.

Diqqətə çatdırılıb ki, ümummilli liderin siyasi xətti ölkəmizdə bu gün də dönmədən həyata keçirilir. Müstəqillik dövründə, xüsusən son 22 ildə Naxçıvan Muxtar Respublikası öz tarixinin ən böyük sosial-iqtisadi inkişaf mərhələsini yaşayıb.

Naxçıvan Dövlət Texniki Kollecinin kimya-biologiya müəllimi Samirə Mustafayeva "Müstəqil Azərbaycan dövlətinə xidmətdə keçən ömür", Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyinin sədri Cəbi Quliyev "Ümummilli lider Heydər Əliyev və müstəqil Azərbaycan" mövzularında çıxış ediblər.

Bildirilib ki, tariximizin yarıməsrə yaxın bir dövrü bilavasitə ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1991-ci ildən öz istiqlalına qovuşmuş xalq qısa müddətdə yenidən müstəqilliyini itirmək təhlükəsi ilə üzləşdi. Ulu öndərin belə bir taleyüklü anda, 1993-cü il iyunun 15-də yenidən siyasi hakimiyyətə qayıdışı xalqımızı müsibətlərdən, dövlətimizi isə məhv olmaq təhlükəsindən xilas etdi.

Qeyd olunub ki, Yeni Azərbaycan Partiyasının fəaliyyətdə olduğu 25 ildə həyata keçirilən tədbirlər, daxili və xarici siyasət sahəsində, hüquqi-demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində əldə olunmuş nailiyyətlər dövlət müstəqilliyimizin daha da möhkəmlənməsinə və davamlı xarakter almasına xidmət edib.

Konfransda ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini, müstəqil Azərbaycan dövlətinin quruculuğu və Naxçıvan Muxtar Respublikasının inkişafı prosesini əks etdirən slaydlar nümayiş etdirilib.

*Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı ölkəmizin dövlət müstəqilliyinin 26-cı ildönümünə həsr olunmuş "Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir" adlı tədbir keçirib. Şahtaxtı Kənd Mərkəzinin iclas zalında keçirilən tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyevanın geniş məruzəsi dinlənilib.*



Bildirilib ki, Azərbaycan xalqının ən böyük sərvəti olan dövlət müstəqilliyimizin əldə edilməsi hər bir Azərbaycan vətəndaşı üçün müstəsna əhəmiyyət daşıyır. Lakin müstəqilliyin ilk illərində dövlət rəhbərliyində olan səriştəsiz adamların yeritdikləri səhv siyasət, daxildə gedən siyasi çəkişmələr, yaranmış xaos və anarxiya uzun illər arzusunda olduğumuz bu əvəzedilməz sərvətin itirilməsi təhlükəsini yaratmışdı. Belə bir ağır dövrdə böyük təcrübəyə malik, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı ilə bu təhlükə aradan qaldırıldı. Məhz ulu öndərin əvəzsiz xidmətləri sayəsində Azərbaycan xalqının XX əsrin sonlarına doğru yenidən qazandığı milli müstəqillik qorunub saxlanıldı, respublika inkişaf yoluna qədəm qoydu.

Vurğulanıb ki, bu gün ulu öndər Heydər Əliyevin siyasi kursu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının rəhbərliyi altında bu gün müstəqilliyimizin siyasi və iqtisadi sütunları getdikcə möhkəmlənir. Azərbaycan bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib.

Zamanın sınağından uğurla çıxmış Heydər Əliyev siyasəti Naxçıvanda da qətiyyətlə davam etdirilərək muxtar respublikamızın inkişafına xidmət edir. Məhz Heydər Əliyev siyasətinə sədaqətin ifadəsidir ki, Naxçıvan Muxtar Respublikası blokadanın çətinliklərini aşıb, böyük tərəqqiyə qovuşub.

Tədbirdə Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının Şura üzvü Səfər Qazıbəyov, rayon Təhsil Şöbəsinin müdiri Emin Məmmədxanlı, təşkilatın Gənclər Birliyinin üzvü Kənan Məmmədov mövzu ilə bağlı çıxış ediblər.

Tədbirdə Yeni Azərbaycan Partiyası sıralarına qəbul olunmuş bir qrup gəncə üzvlük vəsiqələri təqdim edilib, Müstəqillik Gününə həsr olunmuş videomateriala baxış olub.

## Naxçıvan Beynəlxalq Hava Limanı payız-qış mövsümünə hazırdır

***Naxçıvan Beynəlxalq Hava Limanında 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq işləri başa çatdırılıb.***

Hava limanının aerodrom təminatı sahəsinin rəisi İlkin Nəsirov bildirib ki, mövsümlə əlaqədar ayrı-ayrı xidmət sahələrində qrafik üzrə nəzərdə tutulmuş bütün işlər yerinə yetirilib. O qeyd edib ki, hava limanının soyuq və qarlı günlərdə də daim işlək vəziyyətdə saxlanılması, hava gəmilərinin enib-qalxması zamanı təhlükəsizliyin təmin olunması üçün profilaktik tədbirlər həyata keçirilib. Fırçalı qartəmizləyən, qarkürəyən, istilik verən, rotorlu xüsusi avtomaşınlar saz vəziyyətə gətirilib, hava limanında uçuşların təhlükəsizliyi üçün davamlı olaraq bütün elektrik, işıq sisteminin, rabitə qurğularının, maşın-mexanizmlərin texniki baxışı həyata keçirilib. Həmçinin tələbata görə yanacaq və mal-material ehtiyatının yaradılması diqqət mərkəzində saxlanılır.

İlkin Nəsirov onu da qeyd etdi ki, görülən işlər soyuq qış aylarında da həm yerli, həm də beynəlxalq səviyyəli uçuşların hava limanında fasiləsiz həyata keçirilməsinə imkan verəcəkdir.

**Xəbərlər şöbəsi**





*Azərbaycan xalqı tarixboyu özünün dövlətçilik ənənələrinə malik olmuş, işğalçılara qarşı mübarizə aparmış, XX əsrdə iki dəfə öz müstəqilliyini elan etmişdir. XX əsrin əvvəllərində yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamış, Azərbaycanın adı Şərqin və Türk dünyasının tarixinə ilk respublikanın qurulduğu ölkə kimi düşmüşdür.*

### 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür

# Dövlət müstəqilliyimiz ən ali dəyərimizdir

XX əsrin sonlarında Azərbaycan ikinci dəfə müstəqilliyini əldə etmişdir. Bu müstəqillik ötən əsrin 80-90-cı illərində dünyada baş verən ictimai-siyasi proseslərin və Azərbaycan xalqının müstəqillik uğrunda əzmkar mübarizəsinin nəticəsi olmuşdur. Məlumdur ki, XX əsrin 80-ci illərinin sonunda keçmiş SSRİ-də siyasi, ictimai, iqtisadi böhran başlamış, bu isə ittifaq respublikalarında milli azadlıq hərəkatlarının güclənməsinə şərait yaratmışdır. Azərbaycanın müstəqilliyə hazırlanması isə daha əvvəl, ümummilli lider Heydər Əliyevin ölkəmizə ilk rəhbərlik etdiyi illərdən başlanmışdır. O zaman ulu öndər böyük uzaqgörənliklə hərbi, iqtisadi, sosial, ideoloji tədbirlərin həyata keçirilməsinə nail olmuş, beləliklə də, Azərbaycanın gələcək müstəqilliyinin təməlləri hazırlanmışdır. Hələ sovet dövlətinin kifayət qədər güclü olduğu və milli əqidəli insanlara qarşı barışmaz mövqe nümayiş etdirdiyi bir dövrdə dahi öndər Azərbaycan ziyalılarını qorumuş, onları sovet zindanlarında çürüməkdən xilas etmişdir. Bununla yanaşı, ümummilli lider Azərbaycan gənclərinin Sovetlər Birliyinin nüfuzlu ali məktəblərində təhsil almalarına nail olmaqla, gələcək müstəqil Azərbaycan üçün milli kadr potensialını hazırlamışdır.

1990-cı ilin iyul ayında Naxçıvana gələn ulu öndər 30 sentyabr 1990-cı ildə keçirilən seçkilərdə yekdilliklə Azərbaycan SSR-in və Naxçıvan MSSR-in deputatı seçildi. 1990-cı il noyabrın 17-də Naxçıvan MSSR Ali Sovetinin ulu öndərin sədrliyi ilə keçirilən ilk sessiyasında, ümumən, Azərbaycanın gələcək müstəqillik müqəddəratı baxımından son dərəcə böyük əhəmiyyətə malik olan taleyüklü qərarlar qəbul edildi. Sessiyada Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarıldı, Naxçıvan MSSR Ali Soveti Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırıldı. Milli istiqlal rəmzi olan üçrəngli bayrağımız ilk dəfə bu sessiyanın tarixi qərarı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edildi, həmin bayrağın Azərbaycan Respublikasının rəsmi dövlət rəmzi kimi tanınması haqqında Azərbaycan SSR Ali Soveti qarşısında vəsatət qaldırıldı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyasında Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edən mühüm məsələlər – 1990-cı il 20 Yanvar faciəsi və Dağlıq Qarabağ münaqişəsi də müzakirə edildi. 31 dekabrın "Dünya Azərbaycanlılarının Həmrəylik Günü" kimi qeyd olunması ilə bağlı tarixi qərar qəbul edildi. Rus qoşun hissələri muxtar respublikadan çıxarıldı, Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin təşkili nəticəsində Naxçıvanın müdafiəsi üçün sistemli tədbirlər görüldü, ölkəmizdə ilk dəfə Naxçıvanda nizami ordu hissələri yaradıldı. Bir sözlə, Naxçıvan xalqımızın demokratiya və müstəqillik uğrunda başlanan mübarizəsinin mərkəzinə çevrildi.

18 oktyabr 1991-ci ildə Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Lakin müstəqilliyin qazanılması onu qorumaq uğrunda aparılacaq daha gərgin mübarizələrin başlanğıcı idi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin də dediyi kimi: ***"Müstəqillik yolu qədər çətin yol yoxdur. Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması ondan da çətindir".***

Bu çətinlik özünü bütün sahələrdə göstərirdi. 1991-1993-cü illərdə ölkədə hərc-mərclik, özbaşınalıq, siyasi-iqtisadi tənəzzül baş alıb gedirdi. Xarici təcavüz, doğma torpaqlarımızın 20 faizinin işğalı, yüzlərlə insanın şəhid olması, qaçqın və məcburi köçkün problemləri, siyasi qarşıdurmalar son həddə çatmış, separatçı meyillər daha da güclənmişdi. Azərbaycan sonu görünməyən dəhşətli bir uçurum – müstəqil dövlət kimi dünya xəritəsindən silinmək təhlükəsi qarşısında qalmışdı. Müstəqilliyimizin qorunub saxlanılması, qarşıya qoyulmuş məqsədlərə nail olmaq, milli həmrəylik və iradə nümayiş etdirmək üçün əsas birləşdirici qüvvə olan "milli lider" şəxsiyyətinə olan zərurət özünü bütün kəskinliyi ilə göstərirdi. Xalqı arxasınca aparmaqla müstəqil Azərbaycanı yaşada bilən, zəngin dövlət idarəçiliyi təcrübəsinə malik olan liderə böyük ehtiyac var idi. Belə bir lider yalnız müdrik şəxsiyyət Heydər Əliyev ola bilərdi...

1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə yenidən Azərbaycanda hakimiyyətə gələn dahi siyasətçi ilk olaraq müstəqillik, Azərbaycançılıq ideologiyasını milli şüurda və psixologiyada, xalqın iradəsində bərqərar etməyə nail oldu, insanlarda Vətən, dövlətçilik, suverenlik, vətənpərvərlik hissiyyatları gücləndi, Azərbaycançılıq siyasi ideologiya səviyyəsinə qaldırıldı. Azərbaycanda demokratikləşmə milli inkişafın vacib faktoru kimi dövlət siyasətinin əsas istiqamətinə çevrildi. Ölkənin həyatında yeni, çox zəruri olan ictimai-siyasi sabitləşmə, demokratik prinsip və təsisatlar yaradıldı. Ulu öndərin uzaqgörən siyasəti nəticəsində atəşkəsə nail olundu, torpaqlarımızın işğalının qarşısı alındı, ordu quruculuğuna başlandı. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" sazişi imzalandı, neft strategiyasının və davamlı iqtisadi inkişafın əsası qoyuldu. Bununla da, Azərbaycan yenidən 1969-cu ildə əsası qoyulan tərəqqi və yüksəliş yoluna qayıtdı, 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi, insan hüquqlarının, fikir plüralizminin, söz və məlumat azadlığının, vətəndaş cəmiyyəti institutlarının formalaşdırılması və inkişafına etibarlı zəmin yarandı. Azərbaycan müstəqil, hüquqi dövlət kimi beynəlxalq qurumlar, dünya dövlətləri tərəfindən tanındı, demokratiya yolunda inamla irəliləməyə başladı. Qısa müddət ərzində Azərbaycan 150-dən artıq ölkə ilə diplomatik əlaqələr qurdu.

2003-cü ildən etibarən ümummilli liderin inkişaf strategiyasını inamla davam etdirən ölkə başçısı cənab İlham Əliyev Azərbaycanı regionun qüdrətli dövlətinə çevirmişdir. Müstəqil Azərbaycanın ötən dövrdə Prezident İlham Əliyevin rəhbərliyi altında ciddi uğurlara imza atması, iqtisadi inkişaf tempi ilə dünyada lider mövqelərini qoruyub saxlaması dövlət idarəçiliyinin uzun illər ərzində formalaşmış, təcrübədən uğurla çıxmış təkmil mexanizmlər əsasında həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. Ölkəmiz iqtisadi və demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində böyük nailiyyətlər qazanmışdır. Yeni neft strategiyasının müvəffəqiyyətlə davam etdirilməsi, Azərbaycana xarici sərmayə qoyuluşunun artması, qeyri-neft sektoruna, regionların inkişafına yönəldilən investisiyanın ilbəil çoxalması, sahibkarlığın inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi dövlət başçısının iqtisadi siyasətinin əsasını təşkil edir.

Azərbaycan bu gün Şərqlə Qərbi birləşdirən bütün optimal nəqliyyat-kommunikasiya xətlərinin, habelə neft-qaz boru kəmərlərinin keçdiyi əlverişli tranzit məkan kimi təkcə Avropa üçün deyil, həm də Uzaq Şərq üçün strateji əhəmiyyət daşıyır. Bu gün ölkəmiz bir çox beynəlxalq əhəmiyyətli tədbirlərin nümunəvi ev sahibi və təşkilatçısıdır. Avropa Şurasında, İslam Əməkdaşlıq Təşkilatında, BMT-nin Təhlükəsizlik Şurasında, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında, Qoşulmama Hərəkatında, YUNESKO-da, digər nüfuzlu təşkilatlarda Azərbaycanın xüsusi yeri vardır. Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər, hərbi-sənaye kompleksinin yaradılması isə ölkəmizin qüdrətini daha da artırır.

Bu gün Azərbaycan müstəqil dövlət kimi yaşayır və inkişaf edir. Bu inkişafdan Naxçıvan Muxtar Respublikasına da yetərincə pay düşüb. Müstəqillik dövründə muxtar respublikamızın keçdiyi yolu xarakterizə etmək, inkişaf dinamikasını görmək üçün real həyata baxmaq kifayətdir. Əldə olunanlar dövlət müstəqilliyinin bəhrələridir. Son illər rayon mərkəzlərindən ucqar dağ kəndlərinədək hər yerdə aparılan genişmiqyaslı quruculuq prosesləri, muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı, əhalinin həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yaxşılaşması buna parlaq sübutdur. Naxçıvan Muxtar Respublikası müstəqil Azərbaycanın yenitipli məktəblərə, səhiyyə ocaqlarına, yeni texnologiya ilə təchiz olunmuş işlək sənaye müəssisələrinə, hər qarış torpağı əkilib-becərilən kənd təsərrüfatına malik inkişaf etmiş qabaqcıl diyarına çevrilmişdir. Azərbaycanın bu qədim diyarı Heydər Əliyev yoluna sədaqəti ilə milli müstəqilliyin əsl bəhrələrini görür.

Müstəqil Azərbaycan ümummilli liderimiz Heydər Əliyevin şah əsəridir. Bu gün hər bir azərbaycanlı dövlət müstəqilliyini həm də ümummilli liderin ən dəyərli mirası olaraq göz bəbəyi kimi qorumalı, doğma Azərbaycanın inkişafı, çiçəklənməsi naminə səylə çalışmalıdır. Bunun üçünsə, ilk növbədə, ölkəmizdə ulu öndər Heydər Əliyevin siyasi xətti davam etdirilməlidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Ötən hər ili göz önünə gətirəndə bir daha əmin oluruq ki, ölkəmizdə Heydər Əliyev siyasi kursunun alternativi yoxdur. Bu kurs, bu yol Azərbaycanda sosial-siyasi inkişafın yeni tələblər baxımından təmin olunmasının yeganə düzgün yoludur. Bu yol ölkəmizin bu gününün, sabahının və gələcəyinin yoludur".***

*Bu, müstəqillik yoludur!*

**Mehriban SULTAN**

## Norveç Krallığının səfiri muxtar respublikanın təhsil, mədəniyyət və istehsal müəssisələri ilə tanış olub

***Xəbər verdiyimiz kimi, Norveç Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bard İvar Svendsen oktyabrın 16-17-də Naxçıvan Muxtar Respublikasında səfərdə olub. Səfər çərçivəsində qonaq muxtar respublikanın tarixi abidələri, təhsil, mədəniyyət və istehsal müəssisələri ilə tanış olub.***






Diplomat əvvəlcə müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoyub, ulu öndərin xatirəsini dərin ehtiramla yad edib.

Bard İvar Svendsen Heydər Əliyev Muzeyini ziyarət edərək ümummilli lider Heydər Əliyevin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxıb.

Norveç Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Naxçıvan Dövlət Universitetində də olub.

Universitetlə tanışlıqdan sonra Beynəlxalq münasibətlər və xarici dillər fakültəsində səfir Bard İvar Svendsen tələbələrlə görüşüb, Azərbaycan-Norveç əlaqələrinə dair mühazirə oxuyub.

Səfir mühazirəsində iki ölkə arasında əməkdaşlığın əsasının Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulduğunu diqqətə çatdırıb, ötən dövrdə ikitərəfli əlaqələrin inkişafı sahəsində görülən işlərdən danışıb, norveçli alim Tur Heyerdalın Qobustan qayaüstü təsvirləri ilə bağlı araşdırmaları haqqında ətraflı məlumat verib, alimin Azərbaycanın bəşər sivilizasiyasının mərkəzi olması haqqında fikirlərini tələbələrin diqqətinə çatdırıb.

Tələbələri maraqlandıran suallar cavablandırılıb, universitetlərarası gələcək əməkdaşlıq məsələləri müzakirə olunub.

Səfir "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətinin "Badamlı" zavodunda da olub. Burada bildirilib ki, Naxçıvan şəhərində 2,1 hektar ərazini əhatə edən və ümumi sahəsi 9 min 590, istehsal sahəsi isə 3 min 600 kvadratmetr olan istehsal müəssisəsi 2009-cu ildə Azərbaycan Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilib.

"Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi ilə tanışlıq zamanı Norveçin Azərbaycandakı səfirinə Əshabi-Kəhfin sirli tarixi barədə ətraflı məlumat verilib.

Naxçıvan Günəş Elektrik Stansiyasına gələn qonağa məlumat verilib ki, 2015-ci il dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilən stansiya uğurla fəaliyyət göstərir. Bu il sentyabrın 8-də muxtar respublikada 2 meqavat gücündə yeni Günəş Elektrik Stansiyası da istifadəyə verilib. Yeni stansiyanın istifadəyə verilməsi ilə Naxçıvan Günəş Elektrik Stansiyasında il ərzində istehsal ediləcək elektrik enerjisinin həcmi artırılaraq 33 milyon kilovat-saata çatdırılıb.

Qeyd edək ki, Bard İvar Svendsen Naxçıvan Dövlət Xalça Muzeyi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, Heydər Əliyev Sarayı, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, Naxçıvan Biznes Mərkəzi, Naxçıvan Avtomobil Zavodu və Duzdağ Fizioterapiya Mərkəzi ilə də tanış olub.

Oktyabrın 17-də Norveç Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bard İvar Svendsenin Naxçıvan Muxtar Respublikasına səfəri başa çatıb.

Qonaq səfər təəssüratlarını "Şərq qapısı" qəzetinin müxbiri ilə bölüşüb. O, əvvəlcə səfərinin məqsədi barədə danışaraq deyib: "Naxçıvan Muxtar Respublikasına səfərimin məqsədi qədim diyarın iqtisadi potensialı ilə yaxından tanış olmaqdan ibarət idi. Burada keçirdiyim görüşlərdə bu barədə də ətraflı məlumat əldə etdim".

Norveç Krallığı ilə Azərbaycan arasındakı əlaqələrin, əsasən, neft və qaz sektorunda əməkdaşlıqla səciyyələndiyini bildirən səfir, son illər ərzində mədəniyyət sahəsində də əlaqələrin genişləndiyini qeyd edib. O bildirib ki, muxtar respublikanın tanınmış ali təhsil ocağı olan Naxçıvan Dövlət Universiteti ilə Norveçdəki universitetlər arasında qarşılıqlı əməkdaşlıq imkanları mövcuddur.

Diplomat deyib: "Səfər çərçivəsində muxtar respublikanın bir sıra tarixi yerlərində və mədəniyyət müəssisələrində oldum. Bunların içərisində ən yaddaqalanı "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi idi. Burada insan sanki mənəvi rahatlıq tapır".

**Xəbərlər şöbəsi**



Turizm

# Muxtar respublikanın landşaft ekzotikliyi turizmin inkişafı üçün geniş imkanlar açır

***Turizm bölgələrində ən çox diqqətçəkən tərəflərdən biri ərazilərin təbii zənginliklərə malik olmasıdır. Xüsusilə belə bölgələrdə müxtəlif təbiət abidələrinin mövcudluğu landşaft turizminin inkişafına lazımi şərait yaradır. Bəs landşaft turizmi nədir? Bu turizm növü hansı ehtiyatları özündə birləşdirir?***

Əvvəlcə onu qeyd edək ki, “landşaft” sözü beynəlxalq termin olub, almancadan tərcümədə “yerin xarici görünüşü” deməkdir. Elmi ədəbiyyatda tərifi belədir ki, landşaft bütün əsas komponentləri mürəkkəb qarşılıqlı əlaqədə olan və inkişaf səviyyəsinə görə eynicinsli vahid sistem təşkil edən təbii coğrafi kompleksdir. Bu termin ilk dəfə XIX əsrin əvvəlində alman A.Qommeyer tərəfindən coğrafi ədəbiyyatda işlədilmişdir. Həmin termin Rusiya coğrafiyasında təbii ərazi komplekslərinin sinonimi kimi L.S.Berqin, Q.F.Morozovun, V.H.Sukaçovun, A.A.Qriqoryevin və başqalarının əsərlərində öz əksini tapmışdır.

Landşaft turizmi də, əsasən, maraqlı təbiət abidələri və mənzərələrini özündə cəmləşdirən bir turizm sahəsidir. Bu turizm növünün əsasını təbiət və tarixi abidələri maraqlı relyef və mənzərələr fonunda turistlərə təqdim etməkdir. Hazırda dünyada təbiət abidələri və landşaft ekzotikliyi ilə seçilən ölkələr kimi daha çox ABŞ, Meksika, Fransa, İtaliya, Ərəb və Balkan ölkələri tanınır. Bu ölkələrin turizm bölgələrində çoxsaylı və tanınmış təbiət abidələrinin olması həmin bölgələrə istirahətə gedənlərin sayını ilbəil artırır. Məsələn, ABŞ-dakı Qrand Kanyon, Niaqara şəlaləsi, Fransadakı Luara çayı sahilləri, Serbiya və Xorvatiyadakı təbii mağaralar, İtaliyada sönmüş vulkan konusları, Çində dərin dərələr və sair dünyanın maraqlı landşaft gözəlliyinə malik ərazilərindəndir. Təbii ki, dünyanın müxtəlif ölkələrində maraqlı təbiət ərazilərinə malik bölgələr çoxdur. O cümlədən Cənubi Qafqaz regionu da bu sıradan istisna deyil. Azərbaycan isə regionda özünəməxsus təbiət mənzərələri ilə diqqət çəkir. Ölkəmizin landşaft ekzotikliyi baxımından fərqlənən əraziləri içərisində isə Naxçıvan Muxtar Respublikasının öz yeri var.

Ölkəmizin qədim tarixə malik bölgələrindən biri olan muxtar diyarımız, eyni zamanda maraqlı relyefi və təbiət mənzərələri ilə fərqlənir. Təbii ki, muxtar respublika ərazisində maraqlı landşafta malik ərazilər çoxdur. Ancaq onlardan bir qismi turizm cəlbediciliyi baxımından daha çox diqqətçəkicidir. Qeyd edək ki, muxtar respublika ərazisinin çox hissəsini Kiçik Qafqazın Zəngəzur və Dərələyəz silsilələri, onların Araz çayının dərəsinə doğru uzanan və relyefdə orta və alçaq dağlıq yaradan qolları əhatə edir. Zəngəzur silsiləsi Kiçik Qafqazın ən yüksək silsilələrindəndir. Bu silsilənin ən hündür zirvəsi 3906 metr olan Qapıcıq dağı, eyni zamanda Kiçik Qafqazın Azərbaycan Respublikası ərazisindəki ən yüksək zirvəsidir. Daim qarla və ağ buludlarla örtülü olan bu dağ uzaqdan mavi səma fonunda üzən nəhəng gəmiyə bənzəyir. Belə zahiri oxşarlığına görə bura xalq arasında Gəmiqaya adlandırılmışdır. Qədim dünyanın müqəddəs panteonlarından sayılan Gəmiqaya özünün əzəmətli, fantastik görünüşü ilə insanı heyrətə gətirir. Burada eradan əvvəl IV-I-ci minilliklərə aid qayaüstü rəsmlər var. İstər tarixi, istərsə də təbiət turizmini sevənlər üçün Gəmiqaya mükəmməl bir yerdir.

Culfa rayonu ərazisində yerləşən Haçadağ da özünün möhtəşəm görüntüsü ilə ilk baxışda diqqəti çəkir. Əlincəçayın sol sahilində yerləşən vulkanik mənşəli bu dağın hündürlüyü 2415 metrə çatır. Rəvayətə görə, ümumdünya tufanı zamanı Nuh Peyğəmbərin gəmisi Haça dağın zirvəsinə elə güclü toxunmuşdur ki, dağ haçalanmışdır. Tədqiqatçılar dağın adının buradan götürüldüyünü bildirirlər. Zirvəyə doğru qalxdıqca yeddi yerdə siklop tikililərin (qalaçaların) divar – hasarına rast gəlinmişdir. Dağın zirvəsində iki haça arasında qalın gil təbəqəsi vardır. Ocaq yerində gilin içərisindən orta əsrlərə aid saxsı qab qalıqları aşkar edilmişdir. Alimlər Haçadağın qədim müşahidə məntəqəsi kimi istifadə edildiyi qənaətinə gəlmişlər. Onlara görə yaxınlaşan təhlükə haqqında burada yandırılmış ocaq vasitəsilə Əlincə qalasına, oradan isə Çalxanqala və Şapurqalaya məlumat verilirmiş. Möhtəşəm görüntüsü ilə yerləşdiyi əraziyə məxsusi gözəllik verən Haçadağ həm də ekstremal turizm növünü sevənlər üçün əla obyektdir.









Muxtar respublikanın maraqlı landşaft ekzotikliyi ilə seçilən məkanlarından biri də Ordubad rayonu ərazisindəki Göygöldür. Rayonun Nürgüt kəndindən bir neçə kilometr aralıda, dəniz səviyyəsindən, təqribən, 3000-3500 metr yüksəklikdə yerləşən gölün suyu bura ilin bütün fəsillərində yağan qar və yağışdan qidalanır. Bu göl yerli əhali arasında “dörd fəsil” gölü də adlanır. Çünki gölün bir tərəfində qar olanda digər tərəfində yaz çiçəkləri açır. Göl o qədər böyük olmasa da, gözəl təbiət abidəsi kimi göz oxşayır.

Şahbuz rayonu ərazisində yerləşən Batabat yaylağı da landşaft turizminin inkişafı üçün ideal ərazilərdəndir. Naxçıvan şəhərindən 65 kilometr məsafədə, dəniz səviyyəsindən 2445 metr hündürlükdə yerləşən bu ərazi gül-çiçəkli çəmənlikləri, təbii gölü, sadə və təmiz dağ havası, meşələri, Zorbulaq, Südlübulaq kimi şirin suları ilə məşhurdur. Eyni zamanda Batabat yaylağının iqlimi əsəb, ürək və sair xəstəliklərin müalicəsi üçün çox münasibdir. Gəmiqaya ilə qonşuluqda yerləşən Batabat yaylağı ərazisində arxeoloji qazıntılar zamanı aşkara çıxarılan əmək alətləri və maddi-mədəniyyət nümunələri ərazinin ən qədim zamanlardan ibtidai insanların yaşadığı yerlərdən biri olduğunu göstərir. Batabat yaylağında aparılan tədqiqatlar nəticəsində Mustye mədəniyyətinə, Tunc, İlk Dəmir dövrlərinə, orta əsrlərə aid abidələr, yaşayış məskənləri, qalalar, ibadətgahlar, qayaüstü rəsmlər, qoç daş heykəllər və sair aşkara çıxarılıb. Məşhur “Üzən ada” da burada suvarma sistemi üçün istifadə olunan üç göldən ikincisində yerləşir. Üzən ada sfaqnum mamırlarından və onun üzərində bitən ot örtüklərindən formalaşıb. Küləyin istiqamətindən asılı olaraq ada öz yerini dəyişir. Göldə, həmçinin qiymətli qızıl və gümüşü ilişkən balıq növləri də var. Ada göldəki suyun tam axıdılmasına mane olduğundan, burada balıqlar qışda da qala bilir. Torfun altındakı münbit şərait hesabına çoxalan külli miqdarda onurğasızlar balıqların bol qidasını təmin edir.

Ümumilikdə götürsək, muxtar respublikamızın bütün bölgələrində maraqlı landşaft müxtəlifliyi ilə diqqətçəkən məkanlar mövcuddur. Məsələn, Əshabi-Kəhf mağarası, “Əlincəqala” tarixi abidəsi, Araz çayının sahilində yerləşən Gülüstan türbəsi, dünyada bənzəri olmayan, yarımsəhra landşaftına malik Duzdağ mağaraları və adlarını sadalamadığımız onlarla tarixi və təbiət abidələrinin yerləşdiyi ərazilər landşaft turizminin inkişafı üçün ideal imkanlar ortaya qoyur. Biz isə bu yazıda onlardan bəziləri haqqında bəhs etdik.

Ümumi gəldiyimiz nəticə isə bundan ibarətdir ki, Naxçıvan ərazicə kiçik olsa da, buradakı coğrafi relyefin özünəməxsusluğu, təbiət abidələrinin unikallığı və ətraf landşaftla geniş təmasda olması regionu turizm üçün maraqlı edir. Hazırda muxtar respublika ərazisinin 27 faizinin xüsusi mühafizə olunan təbiət ərazilərinə aid olması isə muxtar respublikanın landşaft ekzotikliyini daha da artırır.

**Səbuhi HƏSƏNOV**

Yeni nəşrlər

# Dilimiz mənəvi kimliyimizdir

Tarix dəfələrlə sübut etmişdir ki, assimilyasiya nəticəsində dünyada bir sıra dillər məhv olmuş, başqa dillərin təsiri nəticəsində inkişafını dayandıraraq yox olmuşdur. Azərbaycan dilinin tarixində də məhv olmaq təhlükəsi ilə üz-üzə qalma halları az olmamışdır. Son zamanlara qədər, hətta indi də Azərbaycan dilinin yaşamağa qadir olmadığını iddia edənlərə də rast gəlinir. Filologiya elmləri doktoru, professor Sədaqət Həsənovanın monoqrafik araşdırmalarının nəticəsi olan, “Əcəmi” nəşriyyatında bu yaxınlarda işıq üzü görmüş “Dilimiz mənəvi kimliyimizdir” kitabı bir daha təsdiq edir ki, Azərbaycan dili yüz illər, min illər boyunca sabitliyini saxlamış, ərəb-fars dillərinin nəticəsində onun leksikasında müəyyən dəyişmələr özünü göstərsə də, assimilyasiyaya uğramamış, əksinə vaxtilə Azərbaycana köçürülən ərəblərin dili Azərbaycan dilinə assimilyasiya olunmuş, dilimizin əsas lüğət fondu və qrammatik quruluşu qorunub saxlanmışdır. Hətta bu dilin müvafiq üslubları yaranıb formalaşmış və yüksək inkişaf səviyyəsinə çatmışdır.

“Dilimiz mənəvi kimliyimizdir” kitabı üç hissədən ibarətdir. Birinci hissə “Dilimiz – mənəvi sərvətimiz, qüdrətimiz, kimliyimizdir” adlanır. Burada nitq mədəniyyəti, dialektoloji problemlər, dilimizin yayılma arealı məsələlərindən danışılır. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan nitq mədəniyyəti və siyasi natiqliyinin inkişafındakı rolu, dil məsələlərinə münasibəti, çağdaş dövrümüzdə nitq problemləri faktiki materiallarla üzə çıxarılmış, elmi-nəzəri təhlilə cəlb edilmişdir. Araşdırmalarda maraqlı faktlara toxunulmuş, diqqəti çəkən dil vahidlərindən bəhs olunmuşdur. Kitabın birinci hissəsinin sonunda dilimizin dünya dilləri arasındakı mövqeyi məsələsinə toxunulmuş, slavyan dillərinə təsirini göstərən faktlara müraciət edilmişdir. Sədaqət Həsənova dilimizin qorunması məsələsini ən mühüm problem kimi dəyərləndirir, onun təssübkeşi mövqeyində dayanaraq saflaşmasına mane olan faktlara qarşı çıxır, bütün ziyalıların dilimizi qoruyub yaşatması zəruriyyətini tez-tez vurğulayır.




Yeni nəşrin ikinci hissəsi “Dil və üslub məsələləri” adlanır. Üslubiyyat dilin araşdırılma baxımından yeni sahələrindəndir və hələ də yetərincə tədqiq olunmamışdır. Sədaqət Həsənova Naxçıvanda üslubiyyat sahəsində daha çox araşdırma aparan alimlərdəndir. Onun tədqiqatlarında “Kitabi-Dədə Qorqud” dastanının və Aşıq Qurbani, M.P.Vaqif, S.Vurğun, M.Şəhriyar, M.Araz, B.Vahabzadə kimi bir sıra söz sənətkarlarımızın dil və üslub xüsusiyyətləri öz əksini tapmış, onların yaradıcılığına yeni üslub faktları müstəvisindən yanaşılmışdır.

S.Həsənova hər bir yazısında yeni fikir söyləməyə qadir olan alimlərimizdəndir. Bunu onun son araşdırmalarındakı fikirlər də təsdiq edir. Məsələn, ədəbi simaların dilindən danışarkən onların hansı söz və ifadələri yaratması, hansı yeni üslub keyfiyyətinə malik olması müəllifin diqqət mərkəzində olur.

Kitabın üçüncü hissəsi “Naxçıvan ədəbi mühiti və dilimizin üslub imkanları” adlanır. Bu hissədə Naxçıvanda yaşayıb-yaratmış və çağdaş dövrümüzdə fəaliyyət göstərən söz-qələm adamlarının ədəbi dilimizə münasibəti, yaradıcılığının üslubi cəhətləri, söz aləminə gətirdikləri yeniliklər və sair məsələlərdən bəhs olunur. Burada Naxçıvandakı xalq danışığının üslub keyfiyyətləri də üzə çıxarılır.

Alimin “Dilimiz mənəvi kimliyimizdir” kitabı həm nəzəri, həm də təcrübi cəhətdən əhəmiyyət daşıyır. Azərbaycan dilçiliyinin müxtəlif sahələri (ədəbi dil, nitq mədəniyyəti, dialektologiya, üslubiyyat) ilə məşğul olanlar ondan faydalana bilərlər. Bundan başqa, ali məktəblərin bakalavr pilləsində bir sıra fənlərin, xüsusilə də “Azərbaycan ədəbi dilinin tarixi” fənninin, magistr pilləsində isə “Azərbaycan dilinin üslubiyyatı”, “Poetik linqvistika” fənlərinin tədrisində kitabdakı materiallar maraqlı və faydalı qaynaqdır.

Yeni nəşr, ümumilikdə, Azərbaycan dilçiliyi elminə layiqli töhfələrdən biridir.

**Akif İMANLI**
***filologiya üzrə elmlər doktoru, professor***

*Axtarışlar, tapıntılar*

## Türkiyə klassik musiqisinin əsasını qoyanlardan biri də naxçıvanlıdır

*Türkiyə klassik musiqisinə dair yazılan bir çox mənbədə qarşımıza çıxan Murad ağa kimdir? Murad ağa 1610-cu ildə anadan olub. Əslən naxçıvanlıdır. Sultan IV Muradın Rəvan səfərindən sonra İstanbula gətirdiyi on iki sənətkar arasında yer alan Murad ağa sazəndə qrupunun iki xanəndəsindən biri olub. "İslam Ensiklopediyası"nda bu barədə məlumat verilir. Övliya Çələbi onun carta (çartar), Hüseyn Behçət sestak, Əsəd Əfəndi şeştar çaldığından bəhs edirlər. Onun şeştar ustası olması musiqişünaslar arasında Şeştari Murad ağa kimi tanınmasına gətirib çıxarıb.*

Qeyd edək ki, şeştar türklər və digər müsəlman xalqları tərəfindən istifadə edilən və yerini tambura vermiş olan simli çalğı alətidir. Mənbələrdə qeyd olunur ki, təbrizli Əli xanın icad etdiyi bu musiqi aləti çartara bənzəyir. Lakin adından da bilindiyi kimi onun altı simi var. Şeştardan bu gün İran, Azərbaycan və Qafqazda da istifadə olunur. İbni Qəbinin tərifinə əsasən onun müxtəlifölçülü uda bənzəyən üç növünün olması ilə bağlı məlumat var.

Türkiyənin musiqi tarixinə dair yazılmış bir çox mənbədə də Murad ağa Şeştari ilə bağlı çox maraqlı faktlar yer alıb.

Murad ağanın şöhrətinin ən parlaq dövrü IV Murad ilə (1623-1640) IV Məmməd (1648-1687) dövrləri arasında olub. İstanbula gəldikdən sonra Beşiktaş tərəfdə yaşayıb, burada da vəfat edib.

Hüseyn Behcətin ona yazdığı şeirdən aydın olur ki, o, İstanbulda 36 il yaşayıb.

Behcətin "Tarix" mənzuməsində Murad ağanın şairliyindən də bəhs edilib. Murad ağa məlahətli səsə malik olub. Bəstələdiyi əsərlərlə dövrün tanınmış musiqişünasları arasında yer almağı bacarıb.

Mənbələrdə qeyd olunur ki, Murad ağa musiqiyə aid ilk dərsləri elə doğulduğu torpaqda, Naxçıvanda alıb. Sonralar musiqi təhsilini İstanbulda davam etdirib, öyrəndikləri ilə ustad səviyyəsinə çatıb.

Bəzi akademik məqalələrdə Şeştari Murad ağanın "Buselik Muhammes Karçesi" (Busəlikmüxəmməskarçəsi) adlanan əsəri haqqında məlumatlar yer alıb. Bəzi tədqiqatçılar Əbdülqadir Marağainin müəllifi olduğuna inanılan bir çox bəstənin Murad ağa Şeştariyə məxsusluğunu qeyd ediblər.

Bu yazımızda daha bir naxçıvanlı sənətkarı tanıtmağa çalışdıq. Dahilər yurdu olan diyarımızın yetirdiyi belə sənətkarlar haqqında nə qədər tərif desək, azdır. Onları araşdırıb üzə çıxardıqca Naxçıvanımızla daha da fəxr edir, qürur duyuruq.

**Nərgiz İSMAYILOVA**
***filologiya üzrə fəlsəfə doktoru***

*Memarlıq incilərimiz*

## Ulu babalarımızın yadigarı



***Azərbaycan tarixi abidələrlə zəngin bir ölkədir. Ulu babalarımızın yadigarı olan abidələr bizə keçmişimizdən xəbər verir, məxsus olduğu dövrün mədəni mühitini, xalqımızın sənətkarlıq xüsusiyyətlərini, təfəkkür və düşüncə tərzini özündə yaşadır. Bu baxımdan tarixi abidələrin mühafizəsi və tədqiqi maddi-mənəvi irsimizin qorunub gələcək nəsillərə çatdırılmasına xidmət edir.***

***Aparılan tədqiqatlar bir daha göstərir ki, Naxçıvan təkcə Azərbaycanın deyil, dünyanın ən qədim yaşayış məskənlərindəndir. Tarixçilərin Nuh Peyğəmbər və Dünya tufanı ilə bağlı ortaya qoyduğu faktların Naxçıvanla bağlılığı bu torpağın qədimliyini sübut edir.***

Arxeoloji qazıntılar zamanı tapılan maddi-mədəniyyət nümunələri, Gəmiqaya yazılı abidələri, dağ süxurlarının və torpaq qatlarının öyrənilməsi və sair bu diyarda lap qədimlərdən yaşayış olduğunu göstərir. Ümumdünya daşqınına (Nuh tufanına) qədər bu diyarın adının nə olduğu bizim üçün qaranlıq olsa da, "Qurani-Kərim"də dəfələrlə xatırladılan tufandan sonra bu ərazidə Həzrəti Nuhun nəslinin və onun tərəfdarlarının məskunlaşdığı ilk sivilizasiyanın buradan başlandığı şübhəsizdir.

Naxçıvanın Nuh Peyğəmbərlə bağlılığı hələ qədim dövrlərdən diqqəti cəlb edib, yunan alimi Klavdi Ptolomey bizim eranın II əsrində ilk dəfə olaraq, Naxçıvanı Nuh Peyğəmbərin məskəni kimi xatırladıb. XVI əsrin görkəmli ərəb alimi, coğrafiyaşünas Əl-Şərifi Nuh Peyğəmbərin qəbrinin, hətta gəmisinin qalıqlarının Naxçıvanda olması barədə məlumat verib.

Maraqlı odur ki, Naxçıvanda 5 minillik ilkin şəhər mədəniyyətinin formalaşmasına təsir göstərən amillərdən biri də Duzdağ mədəniyyətidir. Rus tədqiqatçısı Konstantin Nikitinin 1882-ci ildə Tiflisdə nəşr olunan "Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar məcmuəsi"ndə verilən "Naxçıvan mahalı və Naxçıvan şəhəri" adlı irihəcmli məqaləsində Nuh Peyğəmbərin özünün duz mədənində ilk çalışanlardan olması, şəhər əhalisinə duz çıxartmağı öyrətməsi qeyd olunur. Tədqiqatçılar bu ərazidə Eneolit dövründən başlayaraq duz mədənçiliyinin əsasının qoyulduğunu göstərirlər. Naxçıvan Duzdağının tarixi əhəmiyyəti nəzərə alınaraq bu ərazidə arxeoloji tədqiqatlar aparılıb, müxtəlif dövrlərə aid daş alətlərlə yanaşı, Eneolit və İlk Tunc dövrlərinə aid keramika məmulatları aşkar olunub. Aparılan tədqiqatların davamı olaraq "Uluslararası qaynaqlarda Naxçıvan", "Nuh Peyğəmbər: Dünya tufanı və Naxçıvan", "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi", "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzularında keçirilən beynəlxalq elmi simpozium və konfranslarda Naxçıvanda Duzdağ mədəniyyəti elmi əsaslarla təsdiqini tapıb. Təsadüfi deyil ki, bu faktlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun " Naxçıvan Duz Muzeyinin yaradılması" haqqında 2017-ci il 12 sentyabr tarixli Sərəncamında da geniş bəhs olunmuşdur. Adıçəkilən sərəncamın icrası Naxçıvanın şəhərsalma mədəniyyətinin araşdırılmasında, eləcə də Nuh Peyğəmbərlə bağlı yeni məlumatların da üzə çıxarılmasında mühüm rol oynayacaq.

Naxçıvana gələn qonaqların ən çox ziyarət etdikləri Nuh Peyğəmbərin türbəsi onların düşüncəsində dərin iz buraxır. Çünki bəşəriyyətin ikinci yaranış tarixini özündə əks etdirən abidənin istənilən əcnəbidə maraq, təəccüb, həyəcan doğurmaması mümkün deyil. Məhz buna görə də bütün səmavi kitablarda öz əksini tapmış ümumdünya tufanından sonra bəşəriyyətin ikinci atası sayılan Nuh Peyğəmbərin bu torpaqda quruya çıxması, burada yaşaması, vəfat etməsi və məzarının bu torpaqda olması təkcə yerli tarixçilərin deyil, bura gələn səyahətçilərin də xatirələrində zaman-zaman öz əksini tapmışdır.

Abidə məzar, sərdabə və sərdabənin üzərində olan türbədən ibarətdir. Nuh Peyğəmbərin qəbrinin rəsmini naturadan Azərbaycan realist rəssamlığının banisi Bəhruz Kəngərli çəkib.

Sovet hakimiyyətinin yürütdüyü ideoloji siyasət nəticəsində Naxçıvanın ən qədim dövrlərdən Azərbaycan türklərinə məxsusluğunu sübut edən digər abidələr kimi, bu abidə də diqqətdən kənarda qalıb. Son illər Naxçıvanda doğma tariximizin öyrənilməsinə, tədqiqinə və təbliğinə olan maraq bu məsələni yenidən gündəmə gətirib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2006-cı il 28 iyun tarixli "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü abidəsinin bərpa edilməsi haqqında" Sərəncam imzalayıb.

Türbənin bərpası zamanı buraya Nuh Peyğəmbərin dövründən qalma Gəmiqaya daşları və daşların üzərində həmin dövrə aid yazılar, insan rəsmləri həkk olunub. Türbədə, həmçinin Nuh Peyğəmbərin qəbrinin XIX əsrə aid rəsmləri, dənizin varlığını isbat edən daşlaşmış fauna nümunələri, XII əsrə aid divar parçası, fransız rəssamı Monperi tərəfindən 1840-cı ildə çəkilmiş Nuh Peyğəmbərin türbəsinin rəsmi, o cümlədən 2006-2008-ci illərdə türbənin bərpası zamanı, həmçinin 24-25 aprel 2009-cu ildə "Nuh Peyğəmbər: Dünya tufanı və Naxçıvan" adlı beynəlxalq simpozium zamanı çəkilən fotoşəkillər nümayiş olunur.

Bu gün Naxçıvana gələn qonaqların ziyarətgah yerinə çevrilən Nuh Peyğəmbərin məzarüstü türbəsi minilliklərdən süzülüb gələn, qədim tariximizi yaşadan, onu gələcək nəsillərə ötürən, bütün dünyaya tanıdıran memarlığımızın incisi, dünənimizin və bu günümüzün zəngin maddi-mədəniyyət nümunəsidir.

**Güntac ŞAHMƏMMƏDLİ**
***Naxçıvan Dövlət Universitetinin Radiotelejurnalistika ixtisası üzrə I kurs magistrantı***

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və muxtar respublika Gənclər və İdman Nazirliyi tərəfindən 18 oktyabr – Dövlət Müstəqilliyi Günü ilə bağlı təşkil edilən "Azərbaycan, yurdum mənim" bilik yarışının yekun tədbiri keçirilib.*

## Bilik yarışı yekunlaşıb



Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev və muxtar respublika Gənclər və İdman Nazirliyinin aparat rəhbəri Canməmməd Canməmmədov çıxış edərək muxtar respublikada gənc nəslin vətənpərvər ruhda yetişdirilməsi istiqamətində görülən işlərdən danışıblar.

Qeyd edilib ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından ötən dövr ərzində qədim diyarımızda da uşaq və yeniyetmələrin yüksək intellektə malik vətəndaş olmaları üçün təhsilə xüsusi qayğı ilə yanaşılıb, ən müasir standartlara cavab verən məktəblər, ali təhsil ocaqları, məktəbəqədər və məktəbdənkənar müəssisələr istifadəyə verilib, şahmat mərkəzləri yaradılıb. Bütün bu görülən işlər öz bəhrəsini verməkdə, ali təhsil ocaqlarına yüksək göstəricilərlə qəbul olan məzunların sayı artmaqda, məktəbli və tələbələr ölkə miqyasında keçirilən, intellekt və geniş dünyagörüşü tələb edən müxtəlif bilik yarışlarında, olimpiadalarda mükafata layiq yerlər tutmaqdadırlar. "Azərbaycan, yurdum mənim" bilik yarışında da iştirakçıların fəallığı, yaxşı nəticə göstərməleri muxtar respublikada gənc nəslin yüksək səviyyədə yetişməsinə göstərilən dövlət qayğısının bəhrəsidir.

Sonra bilik yarışının qalibləri və iştirakçıları mükafatlandırılıblar.

**Nail ƏSGƏROV**

## Məktəblilərin muxtar respublika spartakiadasına start verilib









***Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 26-cı ildönümünə həsr olunmuş Naxçıvan Muxtar Respublikası orta ümumtəhsil məktəblərinin şagirdləri arasında spartakiadaya start verilib. Spartakiada atıcılıq, "Vətənin müdafiəsinə hazıram" poliatlon beşnövçülüyü, şahmat və basketbol növlərini əhatə edir.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Basketbol, Şahmat və Atıcılıq federasiyaları tərəfindən təşkil olunan spartakiadanın açılış mərasimi Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının gənclər və idman nazirinin müavini Məcid Seyidov, təhsil nazirinin müavini Əli Vəliyev, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini, mayor Cavid Məmmədov çıxış edərək bildiriblər ki, muxtar respublikada güclü idman infrastrukturu yaradılıb. Bu gün gənclərin idmana cəlbi istiqamətində ardıcıl işlər görülür, yeni idman bölmələri yaradılır, müxtəlif idman növləri üzrə bu bölmələrə yeniyetmə və gənclər dəvət olunurlar. Bunun nəticəsidir ki, naxçıvanlı idmançılar ölkə və dünya əhəmiyyətli yarışlarda böyük uğurlara imza atırlar.

Qeyd olunub ki, son illərdə regionumuzda müasirtipli, hər cür maddi-texniki bazaya malik, informasiya texnologiyaları ilə təmin olunmuş məktəb binaları tikilib və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Həmin məktəblərdə idman zalları və açıq idman qurğuları yaradılıb ki, şagirdlər mütəmadi olaraq bunlardan yararlanırlar. Məqsəd məktəblərdə təhsillə yanaşı, idmanı inkişaf və təbliğ etdirmək, şagirdlər arasında bu sahəni kütləvi hala gətirməkdir.

Sonra yarışlara start verilib.

Basketbol üzrə keçirilən yarışlarda 8 komanda mübarizə aparır. Beynəlxalq Basketbol Federasiyasının qaydalarına əsasən təşkil olunan yarış olimpiya sistemi üzrə keçirilir.

Naxçıvan Şahmat Mərkəzində isə zəka sahibləri birincilik uğrunda qüvvələrini sınayırlar. 8 komandalı yarışda 2001-2003-cü illər təvəllüdlü məktəbli şahmatçılar mübarizə aparır. Hər komandanın heyətində 5 oğlan və 4 qız zəka sahibi qüvvəsini sınayır. Yarış İsveçrə sistemi üzrə keçirilir.

"Vətənin müdafiəsinə hazıram" poliatlon beşnövçülüyü üzrə yarışın proqramına əsasən 8 komandanın idmançıları 100 metr məsafəyə qaçış, qumbaraatma, turnikdə dartınma, 2000 metr məsafəyə kross qaçışı və pnevmatik silahdan 10 metr məsafəyə atış üzrə yarışlarda mübarizə aparırlar.

Stolüstü tennis yarışlarında da 8 komanda birincilik uğrunda mübarizə aparır. 2001-2004-cü illər təvəllüdlü məktəblilərin mübarizəsində hər komandanın heyətində 3 oğlan və 3 qız tennisçi var.

Qeyd edək ki, spartakiadaya bu gün yekun vurulacaq və qaliblər İlham Əliyev adına Olimpiya-İdman Kompleksində mükafatlandırılacaqlar.

**Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Babək rayonunun Şıxmahmud kənd sakini Həsənov Lətif Abdulla oğlunun adına olan 529A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

### *Bildiriş*

"İlkin" Kiçik Müəssisəsinin (VÖEN:0700219921) hüquqi adı və təşkilati-hüquqi forması dəyişdirilərək "Şərur tütünü" Məhdud Məsuliyyətli Cəmiyyətə çevrilmişdir.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Əli Cabbarov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 829